# AKADEMİK İSA HƏBİBBƏYLİNİN AZƏRBAYCAN ƏDƏBİYYATI TARİXİNİN DÖVRLƏŞDİRMƏ KONSEPSİYASI

*(Əvvəli ötən saylarımızda)*

Ağababa Yusifzadənin "Həyatın qəhri altında, yaxud xainin sonu", Nemət Bəsirin "İki nakam", Ələkbər Qəribin "Könlümün sultanı", Bağır Cabbarzadənin "Bir yetimin naləsi, yaxud qardaş qardaşa etdiyi xəyanət", Rza Zakinin "Fədayi-eşq", "Nakam qız" romanlarında sentimental insanların yanıqlı taleləri, nakam sevdalar, göz yaşları, xəyanət və iztirab motivlərinin geniş şəkildə təsvir olunduğu, Əli Səbrinin "Şəbi-hicran, yaxud müsibəti-Şadi", "Ballıca və Xallı" povestləri və "Solğun çiçək" romanının Azərbaycan sentimentalizminin ideya-sənətkarlıq xüsusiyyətlərini dolğun surətdə əks etdirdiyi, Xalid Xürrəm Səbribəyzadənin Azərbaycan dövri mətbuatında, xüsusən "Şəlalə" jurnalında çap olunmuş şeirlərinin sentimental poeziyanın ən yaxşı nümunələri olduğu, onun "Eşq və həvəs" romanında, "Sarı yarpaqlar" xatirə-povestində və hekayələrində də sentimental əhvali-ruhiyyənin tam mənası ilə hakim olduğu, Ələkbər Məmmədxanovun (1865-1920) "Şərq və Qərbə çağırış"ı, "Səyyahın söylədikləri" və "Səyahətnamə" adlı nəsr əsərlərində də insana və həyat hadisələrinə sentimental münasibətin öz əksini tapdığı açıqlanır.

XX əsrin əvvəllərində Azərbaycan dramaturgiyasında da sentimental ruhlu əsərlərin yarandığını, bu mənada Cəfər Cabbarlının bədii yaradıcılığını nümunə gətirir, o, "sentimental əsərlər yazmaqla başlamış, romantik kimi davam etmiş, sosialist realizmi ilə ədəbi taleyini başa vurmuşdur" - deyir. Onun "Vəfalı Səriyyə, yaxud göz yaşı içində gülüş" və "Solğun çiçəklər" pyeslərini, Rza Zakinin məktublar əsasında yazdığı "İki müztərib, yaxud əzab və vicdan" əsərini sentimental ruhlu əsərlər hesab edir.

İsa Həbibbəyli bu fikirdədir ki, "Ələkbər Qərib Abbasovun 1912-ci ildə N.Karamzinin "Bədbəxt Liza", Əbülfət Şahtaxtınskinin İ.Getenin "Gənc Verterin iztirabları" əsərlərini Azərbaycan dilinə tərcümə edərək nəşr etdirmələri Azərbaycan sentimentalistlərinin Qərb və rus sentimentalizminə rəğbətini ifadə etməklə bərabər, həm də onların ədəbi mühitdə sentimental ədəbiyyatı təşviq etmək niyyətindən irəli gəlmişdir. Bütövlükdə Azərbaycan sentimentalizminin ədəbiyyata insanın daxili dünyasının zənginliklərinin təsvirini gətirdiyi, nəticə etibarilə cəmiyyəti xəyanətlərdən, yalan, əzab və iztirablardan xilas etmək qayəsinə xidmət göstərdiyi fikrindədir.

* * *

Ədəbiyyatda tənqidi realizm və romantizm ənənələrinin 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti dövründə daha da inkişaf etdiyini bildirən İsa Həbibbəyli Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaranmış "Müsəlman mühərrir və ədiblər dərnəyi" az sonra "Yaşıl qələm" ədəbi birliyinə çevrildiyini və milli istiqlalçı yaradıcı qüvvələri öz ətrafında birləşdirdiyini yazır. Azərbaycan Xalq Cümhuriyyətini təmsil edən ideoloqlar - Məhəmməd Əmin Rəsulzadə (1884-1955), Əlimərdan bəy Topçubaşov (1863-1934), Mirzə Bala Məmmədzadə (1898-1959), Üzeyir bəy Hacıbəyli (1885-1948) və başqalarının ədəbi prosesin idarə olunmasında və inkişaf etdirilməsində yaxından iştiraklarını qeyd edir.

Ədəbi prosesdə Hüseyn Cavid, Üzeyir Hacıbəyli, Məhəmməd Hadi, Abdulla Şaiq, Əliabbas Müznib kimi klassik nəsil yazıçı və şairlərinin yaxından iştirakı ilə yanaşı, cümhuriyyət yazarlarının - Əhməd Cavad, Əliyusif Rai, Seyid Hüseyn, Ümgülsüm, Cəfər Cabbarlı, Davud, Əli Şövqi, Əmin Abid Gültəkin və başqalarının meydana çıxması, qısa müddətdə milli istiqlal ədəbiyyatının yaranıb inkişaf etdirilməsində mühüm rol oynadığını bildirən İ.Həbibbəyli "Milli istiqlalçılıq, milli-mənəvi dirçəliş mövzularının ədəbiyyatın baş mövzusuna çevrilməsi və yeni ədəbi nəslin formalaşmasını bu dövr ədəbiyyatının mühüm nailiyyətidir" - deyir.

1920-ci ilin 28 aprelindən etibarən işğal nəticəsində Azərbaycanda siyasi sistemin bolşeviklərin xeyrinə dəyişməsi ilə əlaqədar ədəbiyyatda milli istiqlal məsələsinin arxa plana keçməsini, 1937-ci ilin qanlı repressiya hadisələrinin ilk növbədə milli istiqlalçı ədəbiyyatın yaradıcılarının, xalqın azadlığına və ölkədə müstəqil dövlətin qurulmasına xidmət edən tənqidi realizm və romantizm ədəbiyyatını təmsil edənlərin fəaliyyətlərinin faciəli finalına çevrilməsini, bununla belə, Azərbaycan ədəbiyyatında milli istiqlal düşüncəsi və tənqidi realizm baxışının uzun müddət yaşadığını, romantizm ideallarının sönmədiyini bildirir. Sovet dövründə XX əsrin 50-ci illərində tənqidi realizm və romantizmin Azərbaycan ədəbiyyatında "fərqli bədii formalarda" yaşadığını faktlarla üzə çıxarır.

**(Davamı var)**

**Gülxani PƏNAH**